# İnsanlığın zirvəsi

*Mən onu çoxdan tanıyıram, görkəmli alim, gözəl qadın, qayğıkeş ana, ailəsinə dayaq olan bir insan kimi. Həyat eşqi, xeyirxahlığı, qayğıkeşliyi ilə onu həmişə zirvədə görmüşəm, insanlığın zirvəsində. Ömrünü mənalandıran nə varsa - elmi, ailəsi, xeyirxahlığı, səmimiyyəti, insanlara doğma münasibəti - hamısı bu nəcib qadının ruhundan, nurundan şölələnib. Tanrı onu belə yaradıb...*

## Nə yaxşı ki, var işıqlı insanlar

18 iyul... Hər il bu gün çox sevdiyim, insanlığına və böyük ürəyinə məftun olduğum, özümə doğma hesab etdiyim, munis saydığım, özünün mülayimliyi, heyranlığı ilə həmişə diqqətdə qalan Ədibə Mir Cəlal qızı Paşayeva haqqında düşüncələrimi, onun təvazökarlığından ehtiyatlanaraq, min ölçüb, bir biçərək qələmə almaq və bu minvalla onu doğum günü münasibətilə təbrik etmək keçir ürəyimdən, elə də edirəm. Lakin tanınmış ali təhsil işçisi, gözəl insan, sonsuz mərhəməti və böyüklüyü ilə könüllərdə özünə sarsılmaz "taxt" qurmuş professor Ədibə xanım Paşayeva haqqında nə deyirəmsə deyim, nə yazıramsa yazım, sonda düşünürəm ki, heç nə deyə bilmədim. Deyirlər, xoş əməllər heç zaman cavabsız qalmır. Etdiyin yaxşılıqlar səni ən azı ətrafındakıların nəzərində ucaldır. Ədibə xanım da bu ucalıqdadır. Onu bu zirvədə təsvir etmək isə çətindir.

Çünki uzun illərdir qəlbimin dərinliyində özünə yuva qurmuş sonsuz sevgi, istək və ehtiram hissləri önündə sözlər çox vaxt aciz qala bilir. Az sözlə, hətta bir baxışla belə, min bir fikri qarşısındakına asanlıqla çatdıra bilən nadir insanlardandır Ədibə Paşayeva. Onu tanıdığım gündən bu günə qədər sözün həqiqi mənasında ondan insanlıq dərsi almışam. Həyatın bütün anlarında örnək olaraq yaşamaq hər kəsə nəsib olan xoşbəxtlik deyildir. Ədibə xanım BDU-da rəhbərlik etdiyi kafedralarda da, cəmiyyətdə də, ailədə də ətrafındakılara münasibətdə xeyirxahlığıyla, davranışıyla örnək olan insandır. Belələrinə yaxşıların-yaxşısı, alilərin-alisi deyilir. Ədibə xanım Bakı Dövlət Universitetində tələbəliyindən bu günə kimi elmi və helmi, mənəvi zənginliyi və intellektual səviyyəsilə, saf niyyəti və elmi-pedaqoji yaradıcılığıyla zirvədə olan müəllimlərdəndir. Bu fikri onu tanıyanların hər biri ağızdolusu söyləyər. Və əminəm, etiraf edərlər ki, hər zaman, hər yerdə obyektivliyi, ədaləti, təmizliyi və haqqı nahaqqa verməməyi ilə seçiləndir Ədibə xanım. İnsanlara yardımçı olmaq, əl uzatmaq, qolundan tutmaq onun canında-qanındadır, varlığına hopmuş xüsusiyyətlərdəndir. Professor Ədibə xanım Paşayeva etibarlı dost, böyük ziyalı, yerini bilən, diqqətcilliyi və genişürəkliliyi ilə əvəzsiz insan kimi onu tanıyanların hər birinin qəlbində özünə taxt-tac quran qənimət adamlardandır. Qəlbindəki mərhəmət, humanizm duyğularını həyəcanlandırmağı bacarır, insanlara sevgi bəxş edir. Bu dünya belə insanların üzünə gözəldir. Çox müdrik qadındır Ədibə xanım, bunu onun hər zaman ətrafında olanlara xoş münasibətində görmək və hiss etmək mümkündür. Elm sahəsindəki uğurlu fəaliyyəti, tələbələrinin yoluna işıq tutaraq onları gələcəyə səsləyən qayğıkeşliyi, təlim-tərbiyə mədəniyyəti bir məqaləyə sığmayan ayrı-ayrı mövzulardır... O, öz sadəliyi, yüksək mədəniyyət və ali əxlaqına görə hamının böyük sevgisini və sonsuz rəğbətini qazanan alim - pedaqoqlardandır. Müəllim adı Ədibə xanımın boyuna biçilibdir desəm, daha doğru olar, məncə. Axı o, böyük yazıçı, alim, pedaqoqluğa şərəf gətirən insanın - Mir Cəlal Paşayevin övladıdır. Həmişə insanlara sadəliyi və böyük insanlığıyla nümunə olan, uzun illər ötsə də, unudulmayan, nurlu siması yaddaşlardan silinməyən Mir Cəlal müəllimin əminəm ki, ruhu çox şaddır, çünki onun övladı ömür boyu çalışdığı Bakı Dövlət Universitetində atasının yolunu illərdir şərəflə davam etdirir. Ədibə xanım uzun və səmərəli elmi və pedaqoji fəaliyyətinə, gənc nəslin təlim-tərbiyəsində fədakarlıqla çalışdığına görə dövlət başçısı İlham Əliyev tərəfindən də öz layiqli qiymətini alıbdır. O, 2000-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub, 2013-cü ildə "Əməkdar müəllim" fəxri adını alıb. Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl təhsil işçisi" Fəxri adına layiq görülüb.

Ədibə xanımın üzünə çox yaraşan mənalı təbəssümü, mehriban zahiri görünüşü, daxili dünyasının zənginliyi, sanballılığı, sadəliyi və səmimiliyi arasında olan dərin bağlılıq onu insanlara sevdirən - doğmalaşdıran əsas xüsusiyyətlərdəndir. O, hər kəsi öz dilində dindirməyi bacaran, qarşısındakını dərhal duya bilən möhtəşəm insani keyfiyyətlərə sahib olan ürəyə malikdir və bu üzdən də böyük nüfuz və hörmət qazanıb. Öz dünyası var Ədibə xanımın: qalmaqalsız, xeyirxahlığa köklənən, qayğılı bir dünya... Şəxsən mənim və elə çox insanlar üçün də Ədibə xanım çalışdığımız qocaman elm və təhsil ocağında böyük xeyirxahlığı tədris edən, öyrədən və bunun hər an öz yaşam tərzində, münasibətlərində açıq-aydın sərgiləyən ayrıca bir məktəbdir. Ondan öyrənilməli, görüb-götürülməli, insana gərək çox ibrətamiz keyfiyyətlər vardır. Professor Ədibə xanım Paşayeva həmkarlarına və tələbələrinə yüksək nəzakət, ehtiram və isti münasibət bəsləyən nadir şəxsiyyətlərdəndir. Dəyişməyən, sabit xarakteri, gözü-könlü tox olması və alicənablığı onu hamının sevimlisi edibdir. Rəhbərlik etdiyi kafedraların əməkdaşlarına verdiyi məsləhətlər, göstərdiyi diqqət, onların elmi işlərinə yazdığı rəylər hər bir müəllimin yoluna işıq saçır və ona böyük uğur gətirir. Ədibə xanım hamının uğuruna sevinən və ürəkdən alqışlayan insandır. Elə bu xüsusiyyətlərinə görə də hamımızın sözün tam mənasında yolgöstərəni və sevimlisidir. Ən gərgin anlarda, çətin gündə ona güvənib üz tutana köməyini əsirgəməyən insandır Ədibə xanım. "Ot öz kökü üstə bitər", - deyib atalar. Əsil-nəcabət belə yerdə üzə çıxır. Aldığı tərbiyə, böyük Mir Cəlal ocağından görüb-götürdükləri, analar-anası Püstəxanımdan əxz elədikləri, ancaq bu görkəmdə və bu parlaqlıqla önə çıxa və insanlara örnək ola bilər. Fikirlərində, düşüncələrində və əməlində sədaqəti, ülviliyi, cana yaxınlığı, paklığı və təmizliyi Ədibə xanımı çoxlarından fərqləndirən əsas cəhətlərdəndir... O, xoş sözlər söyləyən, qarşısındakını ürəkləndirən, dəyər verən və bu minvalla insanlara xoş əhvali-ruhiyyə yaşatmağa çalışan insandır, gözəl ana, nənə, dostdur. Bütün bunların fonunda zəhmətkeş insandır, Ədibə xanım. O, nə əldə edibsə, zəhməti hesabına edib. Nə atasının tituluna, cəmiyyətdəki mövqeyinə arxalanıb, nə də özünə "arxa-dayaq" axtarıb. Mənəviyyatını zənginləşdirmək, biliyini artırmaq üçün cəmiyyətin ziyalı, mədəni, elmli insanlarıyla ünsiyyət qurub, görüb-götürüb. Zəhmət isə ona başucalığı gətirib. Mahir pedaqoqluğu, alimliyi, vətənpərvərliyi, ziyalılığı və yüksək mənəvi dəyərləri ilə insanlığın ən uca zirvəsini fəth edən əzizimiz



Ədibə xanımı doğum günü münasibətilə ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı, sabahın qurucuları olan gənc nəslin təlim-tərbiyəsində, elmi kadrların yetişdirilməsində, şərəfli əməyində uğurlar diləyirəm. Yaxşı ki, varsınız.., Ədibə xanım!

**"Yaxşılıq etməyə öyrənmiş insan, üstəlik alim şəxs insanların ən yaxşısıdır".**

**Məhəmməd peyğəmbər.**

*"Ot öz kökü üstə bitər" deyiblər,*
*Soydan-kökdən gəlir bunca ləyaqət.*
*İllər dəyişmədi sizi bir zərrə,*
*Böyüklük doğurur bunca fəxarət.*
*Həyat məktəbindən insanlıq dərsi,*
*Vermək də hər kəsə nəsib olmayır.*
*Quyunun dibində su yoxsa əgər,*
*Nə qədər su töksən, orda qalmayır.*
*Sizdən söhbət açır, Ədibə xanım,*
*Şeirimin cümləsi, nidası, sözü!*
*Duyğum düşüncəmin ənginliyində,*
*Bəlkə tam çatdırmır arzulanmı...*
*Lakin bilən-bilir, görən də görür,*
*Tanrının sevdiyi bəndəsisiniz,*
*Bunu bir ağızdan söyləyir hamı!*

**Sona ÇƏRKƏZ,**
**BDU-nun baş müəllimi,**
**Yazıçılar Birliyinin üzvü,**
**"Qızıl Qələm" media mükafatçısı.**